UOT 81'28; 81'286

TÜRKAN HƏSƏNZADƏ*

# XVII ƏSR İNGİLİS ƏDƏBİYYATINDA CON MİLTON DÜHASI

*Məqalədə böyük ingilis şairi Con Miltonun həyat və yaradıcılığından bəhs edilir. Burada Con Miltonun yaşadığı ədəbi mühit və onun XVII əsr İngilis ədəbiyyatındakı mövqeyindən söhbət açılır. Qeyd edilir ki, Con Milton İngilis ədəbiyyatında Uiliyam Şekspirdən sonra ən böyük şair hesab edilir. Müəllif məqaləsində C.Miltonun əsərlərinin əsas səciyyəvi xüsusiyyətlərindən bəhs etmişdir. Araşdırmanın nəticəsində göstərilir ki, şair əsərlərinin mövzusunu Bibliyadan seçməsinə baxmayaraq onları inqilabi ruhda yazmışdır. Sonda isə Con Miltonun İngilis ədəbiyyatına verdiyi ədəbi irsin dəyərliliyi qeyd olunmuşdur.*

**Açar sözlər:** *XVII əsr İngilis ədəbiyyatı, ictimai-siyasi həyat, burjua inqilabı, Con Milton yaradıcılığı.*

Mübaliğəsiz demək olar ki, ingilis ədəbiyyatı dünyanın bədii söz xəzinəsinə ən zəngin töhfələr vermiş ədəbiyyatlardan biridir. Bu ədəbiyyat Cefri Çoser və Uilyam Şekspir, Daniel Defo və Conatan Svift, Corc Qordon Bayron və Valter Skott, Çarlz Dikkens və Bernard Şou kimi onlarca şair, nasir və dramaturqları dünya oxucusuna bəxş etmişdir (3s. 3).

XVII əsr İngilis ədəbiyyatı ingilis ədəbiyyatı tarixinin ən mühüm və maraqlı mərhələlərindən biridir. Ümumiyyətlə qeyd edilməlidir ki, XVII əsr istər tarixşünaslıqda, istərsə də ədəbiyyatşünaslıqda Qərbi Avropa xalqları üçün keçid dövrü kimi səciyyələnir (3, s3). XVII əsrin birinci yarısında artıq İngiltərədə ədəbiyyatın istiqaməti, ideya-məzmunu və üslubu dəyişməyə başlamışdır. Bu dövrdə ədəbiyyat ictimai-siyasi həyatda baş verən əhəmiyyətli dəyişikliklərin təsiri altında olmuşdur. Bildiyimiz kimi, XVII əsrdə İngilitərədə feodal münasibətləri getdikcə zəifləməyə, öz yerini burjuaziyaya verməyə başlamışdır. Baş verən bu hadisələr ədəbiyyata da təsirsiz ötüşməmiş, nəticədə isə ingilis humanizmində də böhran müşahidə edilmişdir (87s, 1). Burjua inqilabı ərəfəsində sinfi mübarizə getdikcə güclənmiş, nəticədə isə ədəbiyyatda yeni ədəbi-estetik görüşlər yaranmışdır. Həmin görüşlərin formalaşmasına isə bu dövr üçün səciyyəvi olan puritanlıq ideologiyası səbəb olmuşdur ki, bir çox ingilis şairlərinin dünyagörüşü məhz puritanlıq publisistikasının təsiri altında formalaşmışdır. Puritanlıq ideologiyası tərəfdarları əsasən ingilis burjuazıyasını müdafiə edirdilər. Bununla yanaşı qeyd eymək lazımdır ki, puritanlıq ideologiyası antifeodal, antiklerikal xarakter daşıyırdı. XVII əsr ingilis ədəbiyyatından danışarkən Con Miltonun adını çəkməmək, onun xidmətlərini vurğulamamaq çox böyük haqsızlıq olardı. Con Milton XVII əsr şairləri Con Don və Ben Consonla eyni zirvədə durur. Hətta Con Milton İngilis ədəbiyyatında Uiliyam Şekspirdən sonra ən böyük şair hesab olunur. Mütəfəkkir və inqilabçı şair olan Milton döyüşən, irəliyə doğru hərəkət edən, iztirablar və səhvlər arasından keçərək həqiqət axtaran insana himn yaradır. Onun əsərlərində XVII əsrin ən mühüm hadisələri əks olunmuş, baş verən hadisələr təhlil edilərək ümumbəşəri nəticələr çıxarılmışdır. Onun poeziyasında müşahidə olunan barokko romantizmi də, vətəndaşlıq ideyaları ilə aşılanmış klassisizm də cəmiyyətin həyatında cərəyan edən nəhəng hadisələrin təzahürü, onların dərk olunması cəhdinin ifadəsi idi (4).

Con Milton 1608-ci ildə Londonda anadan olmuşdur. Təhsilə "Müqəddəs Pavel" məktəbində başlamış, sonralara isə Kembric Universitetində davam etdirmişdir. Hələ təhsil aldığı illərdən siyasətlə maraqlanmış, ölkəsində gedən gedən ictimai-siyasi hadisələrə biganə qalmamışdır. XVII əsrdə- İngiltərədə vəziyyətin çox gərgin olduğu bir dövrdə Milton da gənc





olmasına baxmayaraq vətəninin bu burulğanlı həyatında yaxından iştirak etmişdir. Amma bununla da kifayətlənməmiş, öz əsərlərində də bu hadisələrə öz münasibətini ziyalı şəkildə bildirmişdir. O daima cəmiyyətin inkişafı, yenilənməsi üçün səylə çalışmış, mübarizə aparmışdır. XVII əsrdə İngiltərənin ictimai siyasi hadisələrini görkəmli şair öz əsərlərində, xüsusilə də publisistik əsərlərində böyük məharətlə və realistcəsinə təsvir etmişdir. Bu əsnada qeyd etmək lazımdır ki, XVII əsrdə ictimai-siyasi publisistika xüsusi təşəkkül tapmışdır ki, Con Milton bu janrın da ən görkəmli nümayəndələrindən biri olmuşdur. Bu janrda yazdığı "Aeropaqitika", "Büt mübarizi" və "İngilis xalqının müdafiəsi" kimi əsərləri dünya ədəbiyyatının nadir nümunələri sırasına daxildir. "Aeropaqitika " traktatı onun erkən traktatları arasında xüsusi yer tutur. Burada o, mətbuat azadlığını müdafiə etmişdir. "Hökmdarların və dövlətlərin vəzifələri", "İkona düşməni" də onun diqqətəlayiq traktatlarından hesab olunur. Bu traktatlarında o, krala qarşı çıxmış və onun edamına haqq qazandırmışdır. Demişdir ki, kral şəhid deyil, o sadəcə olaraq xalqın ən böyük düşmənidir.

Con Milton yaradıcılığını onun yalnız publisistik əsərlərilə məhdudlaşdırmaq olmaz. Bildiyimiz kimi Con Milton dünya ədəbiyyatında nasir publisistdən daha çox lirik şair kimi tanınmışdır. Onun yaradıcılığı publisistik əsərlərlə yanaşı qiymətli lirik əsərləri- poemaları və dram əsərlərilə də zəngindir. Şair lirik əsərlərində ictimai-siyasi hadisələrlə yanaşı lirik qəhrəmanın daxili aləmini, humanizmi də qələmə almışdır. Milton yaradıcılığı bir qayda olaraq 3 dövrə bölünür.(2, s130) (Lakin Afaq Yusiflinin "XVII əsr Qərbi Avropa ədəbiyyatı" dərsliyində Milton yaradıcılığı 4 dövrə bölünür. I dövr-1620-1640; II dövr-1640-1650; III dövr-1650-1660; IV dövr-1660-1670 illər) Onun yaradıcılığının birinci dövrü 1620-1640-cı illəri əhatə edir. Bu dövr əsasən şairin Hortonda yazdığı şeirlərilə səciyyəvidir.

Yaradıcılığın ikinci dövrü 1640-1660-cı illəri əhatə edir. Bu dövrdə Milton inqilabi ruhda pamfletlər yazmışdır. O, əksəriyyətini Latın dilində yazdığı pamfletlərində bütün Avropaya duyurmaq istəyirdi ki, Puritan inqilabı sadəcə bir inqilab deyil, əslində xalqa hüquq və azadlıq verə biləcək yeganə qüvvədir(2, s133). C.Milton əsasən bu dövrün 40-50-ci illərində daha çox siyasi səciyyə daşıyan publisistik əsərlər yazmış, ingilis həyatının acı həqiqətlərini çox böyük ustalıqla təsvir etmişdir. Yaradıcılığının bu dövründə o, həmçinin tənqidi şeirlər, sonnetlər və elmi əsərlər yazmışdır.

Milton yaradıcılığının ən məhsuldar dövrü üçüncü dövrdür. Bu mərhələdə şair onu gələcəkdə dünya ədəbiyyatının seçilmişlərindən biri edəcək əsərlərini, "İtirilmiş cənnət", "Qaytarılmış cənnət" və "Pəhləvan Samson"u yazmışdır. Qeyd etmək lazımdır ki, bu əsərlərin sujet xətti Bibliyadan götürülmüş olsa da belə əsərlər qətiyyən dini xarakter daşımır. "Pəhləvan Samson" Con Miltonun yeganə dram əsəri, faciəsidir. Puritanların teatra və dramaturgiyaya mənfi münasibətini nəzərə alaraq Milton oynanılmaq üçün deyil, yalnız oxumaq üçün nəzərdə tutulan bir faciə yaratmışdır. Bərpa dövrünün səhnə ənənələrindən fərqli olaraq Milton əyləndirən deyil, həyəcana gətirən, feodal mütləqiyyətin irticasına mübarizəyə çağıran bir faciə yaratmışdır.(1, s123). Faciə Miltonun avtobioqrafik əsəri hesab olunur. Əsas qəhrəman olan Samson da həbsə salınır, gözləri tutulur, amma bütün düşmənlərinə qalib gəlir. əsərdə qeyd edilir ki, onun korluğu düşmənlərin nəzərində ilahi tərəfindən göndərilmiş bir cəzadır. Lakin Milton özünün bu korluğunu könüllü qurban kimi qəbul etmişdir (2, s133).

Milton yaradıcılığının şah əsəri onun 1658-1667-ci illərdə yazdığı "İtirilmiş cənnət" poemasıdır. "İtirilmiş cənnət" poeması nəinki öz dövründə, həm də sonrakı əsrlərdə İngiltərədə və onun xaricində böyük maraq doğurmuş, dünya ədəbiyyatının ən əhəmiyyətli abidələrindən biri kimi qiymətləndirilmişdir. Poemada şair "Tövrat"dan götürülmüş əfsanələr əsasında bir sujet xətti yaratmışdır. Əsərdə Şeytanın fitnəsilə Allaha qarşı çıxan mələklərin-Adəmi və Həvvanın məğlubiyyətindən bəhs olunur. Şairin qənaətinə görə insanın həyat yolu çətin olsa da,

o, həmin yolla irəliyə doğru addımlayacaq, mənən təkmilləşəcəkdir. Bu, həm də Miltonun 40-50-ci illərin hadisələrindən, ingilis burjua inqilabının məğlubiyyətindən çıxardığı əsas nəticə idi (1, s116). XIX əsr inqilabi şairləri "İtirilmiş cənnət" poeması haqqında demişlər ki, Milton əslində Tövrat əfsanəsini tamamilə rədd etmişdir, onun fikrincə Adəm və Həvva qadın və kişi, yəni Yer üzünün ən gözəl məxluqlarıdır (2, s134).

Miltonun digər poeması isə "Qaytarılmış cənnət"dir. Əsər 1666-cı ildə yazılmışdır. Poema 4 nəğmə və 2 min misradan ibarətdir. Əgər "İtirilmiş cənnət"də günah etmək göstərilirsə, "Qaytarılmış cənnət"də günahlardan təmizlənmə qələmə alınır (121s, 1). Milton yaradıcılığının, xüsusən onun bərpa dövrü əsərləri XVII əsr ingilis həyatının, ingilis burjua inqilabı dövrü hadisələrinin ən parlaq inikasıdır. Bu əsərlərdə döyüşən, qalib gələn, məğlub olan, bədbinləşən və inanan insanların əhval-ruhiyyəsi, nifrəti və qəzəbi qələmə alınmışdır. Dini mövzular və sujetlər şairin əsərlərindəki aktuallığı, müasirliyi ört-basdır edə bilməmişdir (1, s126).

Qeyd edildiyi kimi dahi şair əsərlərini müxtəlif janrlarda yazmış və bu da öz növbəsində şairin geniş dünyagörüşə, zəngin biliyə malik olmasından xəbər verir. Bir şair, alim, siyasətçi və publisist kimi Milton nəsri İngiltərə burjua inqilabının tarixi-mədəni xüsusiyyətlərini öyrənmək üçün əvəzedilməz bir xəzinədir.

## ƏDƏBİYYAT


1. Afaq Yusifli İshaqlı "XVII Əsr Qərbi Avropa Ədəbiyyatı". Bakı, 2012
2. T.D.Volosova "English Literature"
3. Zeydulla Ağayev "İngilis Ədəbiyyatı Antologiyası". I cild. "Şərq-Qərb" Bakı, 2007
4. https://az.wikipedia.org/wiki/Con_Milton


***Naxçıvan Dövlət Universiteti***
***turkanhesenzade@box.az***

**Turkan Hasanzade**

## THE GENIUS OF JOHN MILTON IN ENGLISH LITERATURE OF THE XVII CENTURY

The article studies the life and creative activity of John Milton, the great English poet. It explores the literary environment in which John Milton lived and his position in the English Literature of the XVII century. In the article it is also mentioned that John Milton has always been regarded as the greatest English poet after Shakespeare. The author investigates the characteristic features of John Milton's works. The results of research show that he chose his themes from Bible, but wrote of all his works in the revolutionary spirit. Eventually John Milton's great contribution to the English literature is highly evaluated.

**Keywords:** *English literature in the XVII century, social and political life, Bourgeois Revolution, John Milton's creative activity.*

**Тюркан Гасанзаде**

## ГЕНИАЛЬНОСТЬ ДЖОНА МИЛЬТОНА В АНГЛИЙСКОЙ ЛИТЕРАТУРЕ XVII ВЕКА





В статье рассматривается жизнь и творчество великого английского поэта Джона Мильтона. Речь идет о литературной среде периода жизни Джона Мильтона, о его позиции в английской литературе XVII века. Отмечается, что Джон Мильтон после Вильема Шекспира считается самым великим поэтом английской литературы. Автор рассматривает основные специфические особенности произведений Дж.Мильтона. В заключении исследования показано, что хотя темы многих произвелений поэт взял из Библии, но они написаны в революционном духе. В конце отмечена вынесенная Джоном Мильтоном оценка литературному наследию английской литературы.

**Ключевые слова:** *английкая литература XVII века, общественна-политическая жизнь, буржуазная революция, творчество Джона Мильтона.*

**(Filologiya üzrə elmlər doktoru Hüseyn Həşimli tərəfindən təqdim edilmişdir)**

| | | |
|---|---|---|
| ***Daxilolma tarixi:*** | ***İlkin variant*** | ***10.04.2019*** |
| | ***Son variant*** | ***16.05.2019*** |